# Fransanın Kann şəhərində Azərbaycan mədəniyyət günlərinin rəsmi açılışı olmuşdur

## *Birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak etmişdir*

İyulun 4-də Fransanın Kann şəhərində "Azərbaycan Kannda" mədəniyyət günlərinin rəsmi açılışı olmuşdur.











Heydər Əliyev Fondunun və ölkəmizin Fransadakı səfirliyinin təşkilatçılığı ilə keçirilən mədəniyyət günlərinin rəsmi açılışında Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva iştirak etmişdir.

Fransanın şərqində ən böyük kurort və mədəniyyət mərkəzlərindən olan Kann şəhərində hər il beynəlxalq kinofestivalla yanaşı, Avropanın ən böyük sərgi və konfransları da təşkil olunur. Bənzərsiz mənzərəsi və koloriti, o cümlədən Şərq-Qərb ənənələrini özündə birləşdirməsi bu şəhəri turistlər üçün ilin bütün fəsillərində maraqlı edir. Artıq Fransanın ictimai və mədəni dairələrində kifayət qədər nüfuz qazanan Azərbaycan mədəniyyətinin bu dəfə Kannda tanıdılması üzrə işlərə şəhərin müxtəlif yerlərində ölkəmizin təbliğinə həsr olunan posterlərin və banerlərin vurulması ilə başlanmışdır. Bununla da Kann ictimaiyyətinin və turistlərin diqqəti şəhərdə onları gözləyən füsunkar mədəniyyət hadisəsinə yönəlmişdir.

İlk tədbir-4-cü beynəlxalq "Qız qalası" sərgisinin açılışı Kannın döyünən ürəyi, laciverd sahilin ən qaynar məkanı La Kruazetdə baş tutmuşdur.

Azərbaycanın birinci xanımı Mehriban Əliyeva və Kann şəhərinin meri Bernar Broşan, o cümlədən BMT baş katibinin müavini, UNİTAD-ın rəhbəri Filip Dust-Blazi sərginin açılışında iştirak etmişlər.

Mərasimdə çıxış edən Kann şəhərinin meri **Bernar Broşan** Azərbaycan mədəniyyətinin bu şəhərdə nümayiş etdirilməsindən məmnun olduğunu bildirmiş və tədbirlərdə iştirak etmək üçün Kanna gələn Azərbaycanın birinci xanımı Mehriban Əliyevanı salamlamışdır.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva qonaqları salamlayaraq Kann şəhərində başlayan Azərbaycan mədəniyyət günlərində ölkəmizin qədim tarixi, zəngin mədəniyyəti və adət-ənənələrimizin təqdim olunacağını bildirmişdir. Leyla Əliyeva mədəniyyət günlərinin "Qız qalası" sərgisi ilə açıldığını diqqətə çatdırmışdır.

Heydər Əliyev Fondunun vitse-prezidenti **Leyla Əliyeva** demişdir:

--Bu, Bakıda, İçərişəhərdə beş il əvvəl başlanmış "Qız qalası" beynəlxalq sərgisidir. Bakının rəmzi olan "Qız qalası" maketinin üzərində rəsmlərini çəkmək üçün dünyanın 50 ölkəsindən rəssamlar bu sərgidə iştirak etmişlər.

Günün ikinci yarısında Kannda hər il beynəlxalq kino festivalının keçirildiyi Festivallar sarayında "Qafqazın mirvarisi olan Azərbaycanın mədəni dəyərləri" sərgisinin açılışı olmuşdur.



Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın və Kann şəhərinin meri Bernar Broşanın iştirak etdikləri sərgidə ölkəmizin qədim və zəngin tarixinə, mədəniyyətinə dair eksponatlar nümayiş etdirilir.

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti **Mehriban Əliyeva** sərginin açılışında çıxış edərək demişdir:

Kann şəhərinin meri **Bernar Broşan** bu sərginin Azərbaycanın dünyəvi dövlət və zəngin mədəniyyətə malik olduğunu bir daha təsdiqlədiyini bildirmişdir.

Daha sonra hər il Kann şəhərində keçirilən beynəlxalq pirotexnika festivalının rəsmi açılışı olmuşdur. Mühüm məqam ondan ibarətdir ki, budəfəki festivalın rəsmi açılışını Azərbaycan etmişdir.

Bu münasibətlə təşkil olunmuş möhtəşəm atəşfəşanlıq Azərbaycan Respublikasının Dövlət Himninin səslənməsi ilə başlamışdır.

Azərbaycan bəstəkarlarının əsərlərinin səslənməsi Kann səmasını bəzəyən əsrarəngiz şouya xüsusi ovqat qatmışdır. Atəşfəşanlıq dahi Müslüm Maqomayevin "Azərbaycan" mahnısı ilə başa çatmışdır.

Beləliklə, Heydər Əliyev Fondu Azərbaycanın Kanndakı təqdimatına iyulun 20-dək davam edəcək iki möhtəşəm sərginin açılışı ilə start vermiş və bu sərgilərdə yaşanan qələbəlik, sözün əsl mənasında sonsuz maraq təsdiqləmişdir ki, Azərbaycanın zəngin mədəniyyəti dünyanın istənilən yerində qəbul olunur və sevilir.

***

İyulun 5-də Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva şəhərin meri Bernar Broşan ilə görüşmüşdür.

Görüşdə Kannda keçirilən Azərbaycan mədəniyyəti günlərinin əhəmiyyəti bir daha vurğulanmış, şəhər ictimaiyyəti və turistlər arasında bu mədəniyyət tədbirlərinin doğurduğu əks-sədadan məmnunluq ifadə olunmuşdur.

Bernar Broşan iyulun 4-də Kannda açılışını etdiyi Azərbaycanın pirotexnika festivalının minlərlə insan tərəfindən izləndiyini bildirmişdir.

Görüşdə Azərbaycan ilə Kann arasında mədəniyyət sahəsində əlaqələrin gələcəkdə də davam etdirilməsinin vacibliyi qeyd olunmuş, bununla bağlı artıq bəzi layihələrin nəzərdən keçirildiyi bildirilmişdir.

Bernar Broşan Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya Kann şəhərinin fəxri sakini diplomunu təqdim etmişdir.

Daha sonra bu şəhərdə keçirilən "Böyük Səkkizlik"in sammiti zamanı iştirakçı ölkələrin şərəfinə hazırlanan heykəlciyin Azərbaycan bayrağı ilə bəzədilmiş nüsxəsi Mehriban Əliyevaya təqdim olunmuşdur.

İyulun 5-də axşam Kannda Azərbaycanı tərənnüm edən fotosərgi açılmışdır. Bu sərgi, ilk növbədə, xalqımızın qədim adət-ənənələrini, onun dünəni və bu gününü təqdim edir. Təbii ki, əsas məqsəd Azərbaycanın malik olduğu mədəni dəyərləri və bundan irəli gələn zənginliyi olduğu kimi Avropa tamaşaçılarına çatdırmaqdır.

Şərq ilə Qərbin qovuşuğunda yerləşən ölkəmizdə əsrlərin dili ilə danışan abidələrimiz, Bakının rəmzinə çevrilən Qız qalası, Şirvanşahlar sarayı, "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu bu gün ölkəmizin tarixini, onun mədəniyyətini yetərincə əks etdirir.

Mədəniyyət günləri çərçivəsində Azərbaycan incəsənət ustalarının iştirakı ilə caz konserti keçirilmişdir.